**Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB)**
**İdarə Heyətinin sədri Ahmet Erentokun**
**ÇIXIŞI**

**“Avrasİya geosİyasətİndə**
**Türkİyə, Azərbaycan və Rusİyanın yeri və önəmİ”**
**mövzusunda beynəlxalq elmİ-praktİk konfrans**

16 oktyabr 2007-ci il

**Hörmətli dövlət rəsmiləri, elm adamları, iş adamları!**
**Hörmətli qonaqlar, xanımlar və cənablar!**

Dəvətimizi qəbul edib bu günki elmi-praktik konfransa gəldiyiniz üçün hər birinizə təşəkkürümü bildirirəm.

Qeyd etmək istəyirəm ki, Azərbaycan Türkiyə İş Adamları Birliyi Türkiyə və Rusiyanın hər iksinə qonşu olan və hər iki ölkə ilə siyasi, iqtisadi, sosial, və mədəni sahələrdə geniş əlaqələrə malik olan Azərbaycanda birgə layihə həyata keçirə biləcəyini düşünərək TAR (Türkiyə – Azərbaycan – Rusiya) konsepsiyasını irəli sürmüşdür. Bu günki Konfransın məqsədi Rusiya və Türkiyənin Azərbaycanda hər hansı bir sahədə iri layihə həyata keçirmələri imkanlarının araşdırılması və bunun üçün müvafiq şəraitin yaradılmasıdır. Hazırki görüşün TAR konsepsiyasının həyata keçirilməsi istiqamətində mühüm addım olacağına inanıram.

Məlumat üçün bildirirəm ki, ATİB fəaliyyətə başladığı 2004-cü ilin aprel ayından etibarən Azərbaycanın iqtisadi inkişafı, Türkiyə, eləcə də digər xarici ölkələrlə bütün sahələrdə əlaqələrin dərinləşdirilməsi istiqamətində bir sıra ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirmişdir. İlk öncə qeyd edim ki, ATİB təkcə iqtisadi sferalarda deyil, sosial və mədəni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində də fəaliyyət göstərir.

Tarixin ən qədim dövrlərindən bəri mədəniyyətlərin beşiyi olan torpaqlarda yerləşən bu üç ölkənin sahib olduqları tarixi, mədəni bağlar və sahib olduqları təbii sərvətlər, o cümlədən onların strateji mövqeləri Türkiyə, Rusiya və Azərbaycanın əməkdaşlığını zəruri etməkdədir.

Bu həqiqətlərdən hərəkət edərək ATİB tərəfindən irəli sürülmüş TAR Konsepsiyası Türkiyə və Azərbaycan daxil olmaqla 130 milyonluq əhalisi olan Orta Asiya Respublikaları ilə təxminən 230 milyonluq bir əhaliyə sahib olan Rusiya, Ukrayna, Belorus, Gürcüstan və Moldovanın da yer aldığı ‘Regional İqtisadi Əməkdaşlıq Modelinin formalaşdırılmasına xidmət edəcəkdir.

Beləliklə də gənc və dinamik, 400 milyona yaxın bir bazar və çox sayda əməkdaşlıq fürsətləri oln bir regionun dünya iqtisadiyyatına ineqrasiyası çoxmillətli layihələr vasitəsi ilə daha da tez təmin ediləcəkdir.

Nə üçün Türkiyə və Rusiya Azərbaycanda birgə layihələr həyata keçirməlidir. İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycan, sahib olduğu təbii sərvətlər və bu sərvətlərin beynəlxalq bazarlara çıxış yollarının Rusiya və Türkiyə üzərindən keçməsi əməkdaşlığı zəruri edir. Artıq fəaliyyət göstərən Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri və inşa edilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bu əməkdaşlığa əyani sübutdur.

Bu həqiqətləri nəzərə alaraq hazırlanmış konsepsiya Türkiyə və Rusiyadan informasiya texnologiyalarının transferi yolu ilə Azərbaycanda iqtisadi dəyəri olan böyük layihələrin həyata

keçirilməsini nəzərdə tutmaqdadır. Türkiyənin Avropa İttifaqına girmək üçün sərf etdiyi intensiv cəhdlər və bu cəhdlərdən əldə etdiyi təcrübələrdən istifadə edərək, Türkiyənin təşəbbüsü, Rusiyanın aparıcılığı və Azərbacyanın fəal iştirakı ilə yeni bir regional əməkdaşlığın formalaşdırılmasının vacib olduğunu düşünürük.

**Hörmətli Konfrans iştirakçıları!**

TAR konsepsiyasında qeyd edildiyi kimi, Azerbaycanın bu üçbucağa daxil edilməsinin əsas səbəbləri aşağıdakılardır:

- 2005-ci ilin Rusiyada Azərbaycan ili olaraq elan edilməsi
- Bunun qarşılığında 2006-cı ilin Azərbaycanda Rusiya ili elan edilməsi
- İstər Rusiyada istərsə də Türkiyədə çox sayda Azərbaycan vətəndaşının yaşaması
- İstər Türk, istərsədə rus dillərində çox yaxşı danışan gənc və yüksək təhsilli işçi güvvəsi
- Azərbaycanın başda Rusiya olmaqla 11 MDB ölkəsiylə gömrük müqaviləsi imzalaması
- Nəqliyyat xərclərinin aşağı olması
- İstehsalat maya dəyərinin aşağı olması
- Layihənin həyata keçirilməsi nəticəsində istehsal olunan mal və xidmətlərin istehlakçıya çatdırılmasında rol oynayacaq Azərbaycanlı iş adamlarının hər iki ölkədə fəaliyyət göstərmələri
- Azərbaycanın Rusiya və Türkiyə ilə coğrafi yaxınlığı ilə birlikdə, Qafqaz, Orta Asiya, Cənubi Asiya və Yaxın Şərqə yaxınlığı səbəbi ilə təxminən 2 milyardlıq bir bazara çıxma imkanlarına sahib olması

ATİB TAR Konsepsiyasının həyata keçirilməsi üçün bir sıra mühüm addımların atılmasını nəzərdə tutur. Belə ki, hər

şeydən əvvəl, Türkiyə və Rusiya Fedarasiyasında bu konsepsiyasının həyata keçirilməsinə xidmət edəcək dövlət qurumları, iş adamalrı birlikləri, mədəniyyət və sənət mərkəzlərinin müəyyən edilməlidir. Müəyyən edilən bu qurum və təşkilatların içərisindən seçiləcək və sayı təşkilatlar tərəfindən müəyyən edilən üzvlərdən ibarət Hazırlıq Komitəsi qısa bir vaxt ərzində qurulmalıdır. Bundan sonra Layihə aletrnativlərinin seçilməsinə və Regionda iqtisadi investisiya imkanlarının dəyərləndirilməsi üzrə İnvestisiya Holdinq və ya şirkətinin qurulmasına ehtiyac vardır.

Çıxışımın sonunda bir daha vurğulamaq istəyirəm ki, Avrasiya İqtisadi əməkdaşlığının təməlini təşkil edəcək üçtərəfli əməkdaşlıq təşəbbüsü bu gün Avrasiyanın önəmli bir hissəsini təmsil edən ölkələrin iş adamları birlikləri və dövlət başçılarının fəaliyyətləri ilə də dəstəklənməktədir.

Beləliklə, sahib olduğu enerji mənbələri və inkişaf etməkdə olan gənc və dinamik bazar olma xüsusiyyəti ilə çox sayda əməkdaşlıq imkanlarına malik Avrasiya regionunun dünya iqtisadiyyatına inteqrasiyası transmilli layihələr sayəsində daha tez təmin ediləcəkdir.

Fürsətdən istifadə edərək, bu konfransın təşkilində ATİB-lə birgə fəaliyyət göstərmiş Rusiya Müasir Humanitar Akademiyası və Bakı İnnovasiya Texnologiyaları Mərkəzinə dərin minnətdarlığımı bildirir, sizə konfransın işində uğurlar arzu edirəm.